# Xocalı soyqırımı-xalqın qan yaddaşı

## Xocalı faciəsi bəşəri cinayətdir

Fevral ayının 26-da rayon icra hakimiyyətinin iclas salonunda Xocalı faciəsinin 21-ci ildönümünə həsr edilmiş yığıncaq keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyəti aparatının işçiləri, rayonumuzda məskunlaşmış Xocalı və Dağlıq Qarabağın digər bölgələrindən olan məcburi köçkün və qaçqınlar, rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Yığıncağı açan rayon icra hakimiyyəti başçısının birinci müavini A. Ağasəfovun təklifi ilə Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Sonra rayon icra hakimiyyətinin məsul işçisi Z. Əfəndiyev Xocalı faciəsinin 21-ci ildönümü ilə əlaqədar çıxış etdi. Qeyd etdi ki, Xocalı faciəsi 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində erməni silahlı birləşmələrinin keçmiş Sovet ordusunun Xankəndindəki 366-cı motoatıcı alayı ilə birlikdə törətdikləri cinayət bəşər tarixinin ən qanlı səhifələrindən biridir. Xocalı soyqırımı zamanı 613 nəfərin, o cümlədən 106 qadın, 63 uşaq, 70 qocanın həyatına son qoymuş, 487 sakin ağır yaralanaraq əlil olmuş, 1275 nəfər əsir və girov götürülmüş, onlardan 150 nəfərin taleyi bu gün də məlum deyil.





1993-cü ildə xalqın istək və arzusu ilə ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə siyasi-hüquqi qiymət verilmişdir. Ümummili liderimizin siyasi kursunun layiqli davamçısı cənab Prezident İlham Əliyev haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımının tanınması istiqamətində daim çalışır, bu sahədə ardıcıl iş aparır.

Yığıncaqda Xocalı rayon sakini Kamal Məmmədov, məcburi köçkünlərin Şuşa rayonu üzrə nümayəndəsi Əhəd Həsənov, Qəbələ rayonu ictimaiyyətinin nümayəndəsi Aslan Cəlilov çıxış edərək Xocalı faciəsi zamanı qətlə yetirilmişlərin ailələrinin, Xocalı soydaşlarımızın Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğunu vurğulamış, bu soyqırımın heç zaman qan yaddaşımızdan silinməyəcəyini söyləmişlər.

Yığıncağı rayon icra hakimiyyəti başçısının birinci müavini A. Ağasəfov yekunlaşdırmışdır.

**Aslan CƏLİLOV.**
**Fotolar S. Umuyevindir.**

## Xocalı faciəsi unudulan deyil





Ölkəmizin hər yerində Xocalı soyqırımının 21-ci ildönümü münasibətilə silsilə tədbirlər keçirilir. Belə tədbirlər rayonumuzda da davam etməkdədir. Bu günlərdə Heydər Əliyev Mərkəzində yekun tədbir keçirilmişdir. Həmin tədbirdə şəhərimizdəki pedaqoji kollektivlərin nümayəndələri iştirak edirdilər.

İlk öncə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Mərkəzin direktoru Xəyalə İsayeva tədbiri açaraq Xocalı faciəsi zamanı xalqımızın başına açılan müsibətlər barədə buraya toplaşanlara müfəssəl məlumat verdi və bunun geniş dünya ictimaiyyətinə çatdırılması zərurətindən danışdı.

Mövzu ətrafında geniş məruzə edən şəhər 3 saylı tam orta məktəbin müəllimi Gülnar Mütəllimova sovet imperiyasının Xankəndində yerləşən 366-cı motoatıcı diviziyasının bilavasitə yaxından iştirakı ilə ermənilərin həmin gecə törətdikləri dəhşətlərdən danışdı, əliyalın, köməksiz və silahsız insanların başına açılan ağılasığmaz fəlakətlərdən söz açdı. Nəinki qocalara və cavanlara, habelə körpə uşaqlara güzəştə gedilmədiyi qeyd edildi. Erməni cəlladları ölmüş insanlara qarşı belə təhqiramiz hərəkətləri ilə özlərinin dırnaqarası qəhrəmanlıqlarını nümayiş etdirməkdən çəkinmədilər, bir növ bundan həzz aldılar.

Şəhər 5 saylı tam orta məktəbin müəllimi Abgül Musayevanın çıxışı daha ürəkağrıdan faktlarla zəngin idi. Natiq öz çıxışında qeyd etdi ki, 1992-ci il fevralın 25-dən 26-na keçən müdhiş gecədə 613 nəfər dinc əhalini, o cümlədən 63 uşağı, 106 qadını, 70 qocanı yalnız azəri türkü olduğuna görə qətlə yetirdilər, neçəsini süngüdən keçirdilər, ölmüş körpələrin gözləri çıxarıldı, 1275 nəfər əsir götürüldü, 100 nəfərdən artıq insan əlil oldu, 150 nəfər itkin düşdü. O vaxtlar ölkəyə rəhbərlik edənlər tərəfindən bu qətliama göz yumulsa da, ümummilli liderimiz Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra, 1994-cü ildə faciənin düzgün siyasi qiyməti verildi.

Uşaq və ailələrə dəstək mərkəzinin direktoru Rəna Mahmudova çıxışında faciədən 21 il ötməsinə baxmayaraq, bütün beynəlxalq aləmdə ictimaiyyət tərəfindən hələ də düzgün qiymətini almaması təəssüf hissi ilə qeyd edildi.

Tədbirdə iştirak edən rayon icra hakimiyyətinin nümayəndəsi Zahid Əfəndiyev gəncləri mənfur düşmənin hiylələrinə qarşı daim ayıq-sayıq olmağa çağırdı, daxilimizdə erməni dəyirmanına su tökənlərə nifrət hissi aşılandı.

Sonra Xocalı soyqırımına həsr olunmuş film nümayiş etdirildi, məktəblilərin bu mövzuya həsr etdikləri rəsm əsərlərinə baxış keçirildi.

Tədbiri mərkəzin direktoru X. İsayeva yekunlaşdırdı.

**M. RƏHİMOV.**

## «Xocalı soqırımı»na həsr edilmiş xatirə turniri

Xocalı soyqırımının iyirmi birinci ildönümünə həsr edilmiş silsilə tədbirlər planına əsasən 23 fevral 2013-cü il tarixdə Qəbələ rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə şahmat üzrə kişilər arasında xatirə turniri keçirilmişdir. Turnirin keçirilməsində məqsəd Xocalı soyqırımı həqiqətlərinin ictimaiyyətin diqqətinə bir daha çatdırmaq, həmçinin yarış iştirakçılarının idman ustalıqlarının artırılması və təkmilləşdirilməsini təmin etməkdən ibarərdir.

Turnir iştirakçıları ilk öncə Şahmat məktəbində Xocalı soyqırımına həsr edilmiş guşəyə baxmış, həqiqətlər və faktlarla tanış olmuş, şəhid olanların xatirəsini yad etmişlər. Daha sonra tədbirin açılış mərasimində rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov çıxış edərək, Xocalı faciəsinin iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-miilətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsi olduğunu bildirdi. Bununla belə yarış iştirakçılarının nəzərinə çatdırıldı ki, xocalılar hətta amansız soyqırım günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Xatirə turnirində rayonun kənd, qəsəbə və müxtəlif kollektivlərindən olan 35-dək şahmatçılar gərgin oyun nümayiş etdirmişlər. Yarışın nəticəsinə əsasən FHN Mülkü Müdafiə alayının əsgəri Salmanlı Fariz Gündüz oğlu I yeri, Gilan Süd emalı zavodunun əməkdaşı Səfərov Eldar Saleh oğlu II yeri və Vəndam qəsəbə sakini Alməmmədov Araz Bağır oğlu III yeri tutmuşlar.

Qaliblərə rayon Gənclər və İdaman İdarəsinin kubok və diplomları təqdim edilmişdir.

**Elçin OSMANOV,**
**Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**